# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №03 (73) • 23.01.2012

AzadliqRadiosu.az ®

**Həbsdəki taksi sürücüsünə ailə üzvləri ilə görüş verilməyib** səh.2

**Beynəlxalq Valyuta Fondundan Azərbaycana korrupsiya çağırışı** səh.3

**Heydər Əliyev Fondunun yardımından imtina** səh.5

**Крупнейший банк - мафия** səh.7

**Rəsul Quliyevin Avropaya səfəri nə məqsəd daşıyır?** səh.11

**Sürücülər cəriməni niyə banka ödəyə bilmirlər?** səh.10

## Maraqlı videolar

- Bakıda dövlət qurumunun işçiləri arasında dava
- Qırğız həbsxanasında qarşıdurmanın videosu

www.AzadliqRadiosu.az

## Terrorda ittiham edilən Rasim Əliyevin anası nələri deyir...



Yanvarın 19-da MTN məlumat yaydı ki, «əcnəbi vətəndaşlar olan ictimai xadimləri öldürmək məqsədi ilə terror aktı hazırlayan qrup yaxalanıb». Məlumatda deyilir ki, terror aktını Azərbaycan vətəndaşları - Rasim Əliyev, Əli Hüseynov və hazırda İranda yaşayan Balaqardaş Dadaşov planlaşdırıblar.

səh.9

## Azərbaycan yenə «qeyri-azad» ölkələr siyahısında



*Amerikada yerləşən və dünyada demokratik dəyərlərin bərqərar olunması üçün çalışan "Freedom House" qeyri-hökumət təşkilatı yenidən Azərbaycanı "azad olmayan" ölkələr siyahısına salıb. Hesabatda Ermənistan və Gürcüstan "qismən azad" ölkələr kimi göstərilib.*

səh.8

## Rafiq Tağının qətli ilə bağlı təhqiqatın nəticəsi açıqlandı



Rafiq Tağının qətli ilə bağlı yaradılmış Preventiv Təhqiqat Qrupu yanvarın 21-də ilkin hesabatını açıqlayıb. Qrup bıçaqlanma yerindən tutmuş, yazıçı-publisist Rafiq Tağının iş yeri, təcili tibbi yardım xəstəxanası və onun əməliyyat olunduğu xəstəxanaya qədər bir sıra yerlərdə araşdırmalar aparıb.

səh.13

## Tövsiyə



# Həbsdəki taksi sürücüsünə ailə üzvləri ilə görüş verilməyib


İlham Əmiraslanov

**Yanvarın 19-da taksi sürücülərinin aksiyasında saxlananlardan bir neçəsinə 5 sutka inzibati həbs cəzası verilib. Ancaq onlardan yalnız 3-ü barəsində dəqiq məlumat əldə edə bildik – ikisi taksi sürücüsü, biri «Dalğa» Gənclər Hərəkatının üzvüdür. Daxili İşlər Nazirliyindən də həbs edilənlərin sayı barədə məlumat ala bilmədik. Nazirliyin mətbuat xidmətindən, ümumiyyətlə, həbslərin olmasını təkzib etdilər və saxlananların xəbərdarlıqdan sonra buraxıldıqlarını dedilər.**

### AİLƏNİN YEGANƏ İŞLƏYƏN ÜZVÜ HƏBSDƏ

Həbs edilən sürücü İlham Əmiraslanovun ailə üzvlərinin AzadlıqRadiosuna dediyinə görə, ailə başçısının saxlanması barədə ailədə heç kimə xəbər verilməyib. İlham Əmiraslanovun qızı Səbinə deyir ki, atası bir-neçə ay imiş taksidə işləyirmiş: «Bizdə işləyən elə bir atam olub. Ailədə 7 nəfərik. Anam xəstədir. Böyük qardaşım əsgərlikdədir. Bir bacım da bu yaxınlarda əməliyyat olunub. Əvvəllər sosial yardım alırdıq, indi onu da vermirlər».

İlham Əmiraslanovun həyat yoldaşı yanvarın 20-də Bakı Şəhər Baş Polis İdarəsinin Binəqədi rayonundakı İnzibati Həbs Olunanların Saxlama Məntəqəsinə getsə də, yoldaşı ilə görüşə icazə verilməyib. Apardığı yemək də qəbul edilməyib.

### «BİZ AKSİYALARI DAVAM ETDİRƏCƏYİK»

Yanvarın 19-da aksiyada iştirak edən sürücülərsə ayrı-ayrı yerlərdə saxlananların daha çox olduğunu deyirlər. Sürücü Fərman Balayev: «Bizdən 4-5 nəfər saxlanılıb. Onları 200 manat cərimə edib gecə saat 2-də buraxıblar. Tanıdığımız bir sürücüyə də 3 sutka verilib».

Fərman Balayev deyir ki, aksiyada polislər onu da saxlamağa cəhd ediblər. Amma o, birtəhər polislərin əlindən çıxa bilib. Taksi sürücüləri həbslərə və təzyiqlərə baxmayaraq, aksiyaları davam etdirməkdə israrlı olduqlarını bildirirlər.

### NAZİRLİK DƏ SONA QƏDƏR QƏRARINI DƏYİŞMƏYƏCƏYİNİ DEYİR

Nəqliyyat Nazirliyinin sözçüsü Namiq Həsənov isə AzadlıqRadiosuna deyib ki, hətta sürücülərin aksiyaları davamlı olsa belə, bu, verilən qərarı dəyişməyəcək. Nəqliyyat Nazirliyi ilə yol polisi yanvarın 14-dən lisenziyasız taksilərə qarşı reydlərə başlayıb. Nazirlik hesab edir ki, taksi sürmək istəyənlər 5 illik lisenziya almalıdırlar. Bundan başqa, avtomobillərin istehsal tarixi 2006-cı ildən köhnə olmamalı, rəngi isə ağ və ya «London taksiləri» kimi bənövşəyi olmalıdır. Bir də avtomobilə sayğac və naviqasiya sistemi quraşdırılmalıdır.

### HÜQUQ MÜDAFİƏÇİLƏRİNDƏN GİLEY

Saxlanan taksi sürücülərinin yaxınları hüquq müdafiəçilərinin onlarla maraqlanmamasından narazıdırlar. Ancaq İşgəncələr Əleyhinə Komitənin sədri Elçin Behbudov həbsdə olan sürücülərlə görüşməyi planlaşdırdığını deyir: «Mənə müraciət olunmayıb. Sabah çalışaram gedim ora».

### «İNZİBATİ ÜSUL TAKSİ SÜRÜCÜLƏRİNİ DAYANDIRA BİLMƏYƏCƏK»

Nəqliyyat məsələləri üzrə ekspert Valeh Hümbətoğlu isə bildirir ki, rəsmi qurumların həyata keçirdiyi tədbirlərlə taksi məsələsini həll etmək mümkün deyil. Onun fikrincə, çoxları taksi sürücüləri ilə evləri sökülənləri müqayisə edib bu aksiyaların da tezliklə sakitləşəcəyini deyirlər: «adamın 5-otaqlı evini söküb ona 1 otaqlı ev verməklə onu bir təhər sakitləşdirmək olar. Amma bu adamların son şansı taksi xidməti göstərməklə ailəsini dolandırmaqdır. Hökumət taksidən uzaqlaşdırdıqlarını işlə təmin etməlidir.



Narazılıqlar yalnız bununla aradan qaldırıla bilər».

Valeh Hümbətoğlu milyon manatlarla büdcə vəsaiti hesabına alınmış «London taksiləri»nin effektli işləməyəcəyini düşünür və Nəqliyyat Nazirliyini daha səmərəli addımlar atmağa çağırır.

***Maarif Çingizoğlu***

# AzadlıqFM

Hər həftənin cümə axşamları saat 23-dən gecəyarısınadək AzadlıqRadiosunun yeni layihəsi Facebook məkanında baş verən maraqlı olayları diqqətinizə çatdırır, sosial şəbəkələrdəki yeniliklərlə sizi tanış edir, Facebookda xüsusi fəallığı ilə fərqlənən şəxslər ilə söhbətlər aparır. Bu yayım eyni vaxtda AzadlıqRadiosununFacebook Fane Pageində də yayımlanır ki, Facebook istifadəçiləri canlı olaraq şərhlər yaza bilsinlər. AzadlıqFM-in arxiv səhifəsi də var.



# BVF Azərbaycanı korrupsiyaya qarşı mübarizəni genişləndirməyə çağırır

**"Korrupsiyaya qarşı mübarizədə Azərbaycan hökumətinin ötən ilin əvvəlindən atdığı müsbət addımlar davam etdirilməlidir". Bu fikirləri Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə missiyasının rəhbəri Nadeem İlahi yanvarın 19-da telekörpü vasitəsilə keçirdiyi mətbuat konfransında deyib. O, korrupsiyanın aradan qaldırılması ilə bağlı Azərbaycanda elektron hökumətin, vahid pəncərə sisteminin tətbiqi və digər halları bu sahədə atılan müsbət addımlar adlandırıb: "Biz orta və kiçik sahibkarlarla geniş müzakirələr aparmışıq. Onların verdikləri məlumatlara görə, doğrudan da korrupsiyaya qarşı mübarizə sahəsində çox effektiv işlər başlanıb. Bizə məlumat verilib ki, hökumət orqanları tərəfindən yoxlamaların aparılması azalıb. Məlumatlarda o da deyilib ki, indi Azərbaycanda biznes fəaliyyəti daha asan həyata keçirilir."**

Bununla yanaşı missiya rəhbəri Azərbaycan üzrə keçirilən bir çox sorğularda korrupsiya məsələsinin dəfələrlə vurğulandığını da diqqətə çatdırıb: "Bu o deməkdir ki, bu problem Azərbaycanda geniş yayılıb. Əlbəttə, Azərbaycan hökuməti tərəfindən müəyyən edilən addımlar çox önəmli addımlardır. Lakin bu addım və tədbirlər davamlı olmalıdır. Bundan başqa, miqyası və əhatə dairəsi genişləndirilməlidir".

Nadeem İlahi Azərbaycanda əmək bazarındakı vəziyyətə də toxunub. O, bu sahədə inkişafın müşahidə olunduğunu deyib: "Bununla bağlı rəqəmlər demək bir az çətindir, amma əmək bazarında inkişaf müşahidə olunur".

# Nemət Pənahlını atasının dəfninə buraxmadılar


Nemət Pənahlı. 10 yanvar 2011-ci il

**Azərbaycan Milli Dövlətçilik Partiyasının sədri, həbsdə olan Nemət Pənahlıya atasının yas mərasimində iştirak etmək üçün hələ şərait yaradılmayıb. Bundan əvvəl onun ailə üzvləri atasının dəfnində iştirak etmək üçün prezident İlham Əliyevə müraciət etmişdilər. Nemət Pənahlının atası Əhəd Pənahlı yanvarın 14-də dəfn edilib. Qardaşı Səməd Pənahlı AzadlıqRadiosuna bildirib ki, ümid edirlər ki, müraciətləri nəticəsiz qalmayacaq.**

Nemət Pənahlı 2011-ci il iyunun 17-də Nəsimi Rayon Məhkəməsinin qərarı ilə 6 il müddətinə azadlıqdan məhrum edilib. O, Cinayət Məcəlləsinin 221.3-cü (silahdan və ya silah qismində istifadə edilən əşyaları tətbiq etməklə xuliqanlıq və qəsdən sağlamlığa az ağır zərər vurma) maddəsi ilə günahkar bilinib. Özü isə həbsinin qurama olduğunu, siyasi fəaliyyəti ilə bağlı olduğunu bildirib.

# Evlənən və boşananların sayı artır

Azərbaycanda ötən il qeydə alınan nikahların sayı artıb. Ədliyyə Nazirliyinin məlumatına əsasən, 2011-ci ildə ölkədə 88151 nikah qeydə alınıb (2010-cu ildə 79300 idi). Bu nikahlardan 2696-sı Azərbaycan vətəndaşı olan qadınlarla əcnəbilər arasında bağlanıb. Ötən il ölkədə 10801 nikahın pozulması faktı qeydə alınıb. Bu isə 2010-cu illə müqayisədə 1901 fakt çoxdur. Boşanmaların 121-i əcnəbilərlə bağlanmış nikahlara aiddir. Ötən il qeydə alınan nikahların yalnız 58-də tərəflər arasında nikah müqaviləsi bağlanıb.

# Video-anons

- **Bakıda dövlət qurumunun işçiləri arasında dava**
- **Qırğız həbsxanasında qarşıdurmanın videosu**
- **Ölkəsinə buraxılmayan Farahani şəkillərdə**
- **Mirzə Xəzər 20 Yanvara qayıdır**
- **20 Yanvar günlərində Şamaxıda partiya biletlərinin cirilməsi**

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun


**ABŞ-da prezidentliyə namizədlik uğrunda mübarizə güclənir**


**Human Rights Watch Azərbaycanda insan haqlarının daha da pisləşdiyini bildirir**


**Prezidentlər Soçidə görüşəcəklər**


İlk dəfə: **Vaqif İbrahimoğlunun gündəlikləri "Oxu zalı"nda**

# Vəkil: "Zeynalabdin Bağırzadə ona işgəncə verildiyini təsdiq etdi"


Vəkil Əshabəli Mustafayev

**Vəkil Əshabəli Mustafayev bu günlər Naxçıvan Muxtar Respublikasına gedərək hazırda həbsdə olan AXCP fəalı Zeynalabdin Bağırzadə ilə görüşüb.**

- Zeynalabdin Bağırzadə mənə bildirdi ki, o, çox güclü fiziki və psixoloji zorakılığa məruz qalıb. Mən görüşəndə aradan xeyli vaxt keçdiyindən, artıq onun üzərində fiziki zorakılığın əlamətləri qalmamışdı. Bir də Z.Bağırzadənin deməsinə görə, ona işgəncələr elə peşəkarcasına verilib ki, üzərində izlər qalmayıb. Üstəlik onun deməsinə görə, təcridxanada işgəncəyə məruz qalmayıb, bu, tutulan zaman baş verib. İndi hiss olunur ki, Z.Bağırzadənin psixologiyasında çox ciddi sarsıntılar var. Yaddaşı zəifləyib. İki-üç gün əvvəl olmuş hadisələri yaxşı xatırlamır. Görünür çox ciddi şok keçirib. Hətta indiyə qədər istintaqda keçilən prosedurları mənə dəqiq xatırlayıb ardıcıllıqla çatdıra bilmirdi.

*- Təzyiqlər nədən ibarət olub ki, bu insan siz dediyiniz hala düşüb?*

- Bilirsiniz onun 50-dən çox yaşı var, böyük ailə başçısıdır. Yaşlı bir insanın təzyiqlərə məruz qalanda belə bir hala düşməsi, məncə, təbiidir. Özü də nəzərə almaq lazımdır ki, o əvvəllərdə həbs edilib, fiziki zorakılığa məruz qalıb. Görünür, qorxu onun canından çıxmayıbmış, daim qorxu içərisində imiş.

*- Siz dediniz ki, Z.Bağırzadəni tibbi müayinədən keçiriblər. Məqsəd onun Çernobıl əlili olub-olmamasını müəyyən etmək olub. Rəy nədən ibarətdir?*

- 2008-ci ildə Babək rayonunda olan bütün Çernobıl iştirakçılarının pensiyalarının düzgün verilib-verilməməsi araşdırılıb. Yəni orada Z.Bağırzadənin xəstə olduğu təsdiqini tapıb və o, pensiya almağa davam edib. Mən müstəntiqdən soruşdum ki, 2008-ci ilin yoxlamaları işdə varmı? Müstəntiq dedi ki, yoxdur. Belə çıxır ki, onlar bunda maraqlı deyillər. İndi mən yeni bir vəsatət hazırlayıram. Ya 4 il əvvəlki rəy işə tikilməlidir, ya da o rəyi verənlər məsuliyyətə alınmalıdır. Bilirsiniz məsələ nə yerdədir. Bunun hərbi biletində Çernobılda iştirakı qeyd edilir. Ancaq bunlar deyir ki, bu möhür saxtadır. Hərbi komissarın bir əməkdaşı da deyir ki, «bir salama» bu saxta möhürü başqa bir şəxsə vurdurub.

*- Onlar məsuliyyətə alınıblar?*

**«MƏN ÖZÜM YA RUSİYAYA, YA UKRAYNAYA GEDƏCƏM Kİ...»**

- Yox, səbəb də göstərilir ki, cinayətin üstündən uzun müddət keçib. Z.Bağırzadənin cinayəti isə güya davam edən olduğundan o, məsuliyyətdən kənarda qalmır. Bunlara həqiqət lazım idisə, Rusiyaya və ya Ukraynaya sorğu göndərib həmin hərbi hissənin sənədlərini tələb edə bilərdilər. Bunu etməyiblər. Ona görə də biz özümüz sorğu verməyə hazırlaşırıq. Lazım gəlsə mən özüm ya Rusiyaya, ya Ukraynaya gedəcəm ki, arxivləri tapım.

*- Başqa hansı addımlar atmaq fikrindəsiniz?*

- Amnesty İnternational təşkilatı ilə danışıqlarımız olub. Z.Bağırzadə atrıq vicdan məhbusu siyahısına salınıb. Yaxın vaxtlarda o, Naxçıvanda 1-ci vicdan məhbusu kimi tanınacaq.

# Ayaqaltında çörək...

Bu şirniyyat (çörək) sexi Yasamal rayonu, Murtuza Muxtarov küçəsi 137-də yerləşir. Cürbəcür şirniyyatlar və çörəklər elə asfaltın üstünə, maşın təkərlərinin üstünə düzülüb satışa çıxarılır. Onu AzadliqRadiosu.az saytına oxuculardan biri yükləyib.



# Statistika Komitəsi: Ölkədən gedənlərin sayı azalır

«Azərbaycandan xarici ölkələrə qazanc üçün getmiş gənclər geri dönür, ölkədən gedənlərin sayı isə ilbəil azalır». Dövlət Statistika Komitəsinin məlumatında belə deyilir. Komitə bunu ölkədə yeni iş yerlərinin açılması ilə əsaslandırır. Məlumata əsasən, 2011-ci ildə daimi yaşamaq üçün Azərbaycana gələnlər 2200, gedənlər isə 500 nəfər olub. İmmiqrantların 77.1 faizini Rusiyadan, 8.1 faizini Qazaxıstandan, 4.3 faizini Ukraynadan gələnlər təşkil edir. Ölkədən emiqrasiya edənlərin 45.1 faizi Rusiyaya, 32.7 faizi Qazaxıstana, 8.4 faizi isə Ukraynaya gedib. Komitənin məlumatında deyilir ki, 2011-ci ildə Azərbaycanda 94 minə yaxın yeni iş yeri açılıb, bunun da 73 minə yaxını daimi iş yeridir. Komitə hesab edir ki, bununla da ölkədə işsizlik daha 0.5 faiz azalaraq 5.4 faizə enib.

# Heydər Əliyev Fondunun yardımından imtina


Pirşağı qəsəbəsində yerləşən «Santex» sanatoriyası

**«DEDİM NEYNİRƏM BU YARDIMI?»**

20 ildir Pirşağı qəsəbəsində «Santex» sanatoriyasının sakini, Xocalıdan məcburi köçkün 43 yaşlı Lətifə Həsənova keçən il Heydər Əliyev Fondunun Xocalı hadisəsinin ildönümündə göndərdiyi yardımı geri qaytarıb: «Şəxsən mən razı olmadım ki, bizə yardım gətirsinlər. Dedim «gəl, mənim vəziyyətimə bax. Neynirəm bu yardımı ki, sənin göndərdiyin dondurulmuş ətlə doyam?» Nəyimə gərəkdir? Mən xəstə adamam, yerdə yatıram, vəziyyətim bu yerdədir. Bir az ət göndərmişdilər, düyü-zad, xırda-para şeylər. Nəyimizə gərəkdir o bizim? Bizə şərait yaratsınlar. Ana turbanı görürsüz? Nə vaxtsa açılsa, batacaq. Nəmişliyin iyini görürsüz? Nəfəs dayanır. Bax, burda yaşayırıq biz».

Bu sanatoriyaya sığınmışların vəziyyəti bir-birindən fərqlənmir. Çat-çat olmuş binanın zirzəmisi su ilə doludur, elektrik sistemi də «əldəqayırma». Zirzəmidən qalxan, tavandan tökülən su, sakinlərin fikrincə, burda həyat mənbəyi funksiyasını itirir:

**KANALİZASİYA DAŞIB, GEDİB LİNOLEUMUN ALTINA**

«Kanalizasiya daşıb, gedib linoleumun altına, gəbəni götürmüşük, ayaqqabı ilə gəzirik, daha neyləyək?» Dənizdən gələn soyuq külək binanın yarıqaranlıq dəhlizindən keçib mənzillərə dolur. Qapısı, pəncərəsi açıq binada köçkünlərlə yanaşı, küçə heyvanları da məskunlaşıb. Ədyala, şala bürünüb oturan qadınlar hərəsi bir xəstəliyə tutulduğunu deyir. Revmatizmdən burda doğulub-böyüyən uşaqlar da əziyyət çəkir. Lətifə Həsənova bu arada parlament seçkilərini də, üzünü görmədikləri millət vəkillərini də xatırladı:


«Santex» sanatoriyası

**BİR KEÇİDİN PULUNA...**

«Hamı yığılıb deputat seçdi onu. Amma hələ bir dəfə bu binada onun üzünü görməmişik. Belə şəraitdirsə, qoy onlar da belə yaşasın da. Bizimlə birlikdə qaçqın çıxıblar, niyə onlar hamısı villada yaşamalıdırlar? Hələ qarovulçuları da var. İki keçidin qara mərmərinin puluna burda yaşayan qaçqınlara ev tikmək olar. Qara mərməri keçidlərə döşəməsinlər, camaatın yaşayışını yoxlasınlar».

Təxminən 60 yaşlı Səyahət Bağırova deyir ki, binanın ucqar yerdə, biyabanda yerləşməsinə görə bura təcili yardım da gəlib çıxa bilmir: «Mən villadan gəlmişəm, evim olub mənim. Mənə də bir ev tiksin. Haranı istəyir gözəlləşdirsin, mənə dəxli yoxdu, mənə şərait yaratsın. Anam şəhid, qardaşım şəhid, bacım şəhid, beş əmim oğlu şəhid, girov. Onların ailəsiyəm mən».

**7 MANAT YARDIM PULUNU BURA XƏRCLƏYİRƏM**

58 yaşlı şuşalı Rəhman Tağıyev hələ də subaydır. Bir otağını bacısı ilə paylaşır. Yaşı təqaüdə düşmür, dövlətdən isə qaçqınlığa görə verilən «çörək pulu» alır. Deyir ki, binada baş verən bütün qəza hadisələrini aradan qaldırmağa o kömək edir: «Yiyəsizxanadır. Hamı tökülüb üstümə. Ordan-burdan, zibilxanadan mən «şnur» tapıb, onları calayıb buraları işıqlı saxlamışam. 7 manat yarım çörək pulu alıram, onu mən bura xərcləyirəm».

35 yaşlı Məhəbbət Qaçayeva nəmişlikdən saralmış tavanı göstərib deyir ki, bir azdan quruyub töküləcək yorğandöşəyin üstünə: «Yeddi nəfər bax bu otaqda qalırıq. Yuxarı taqqıltı salan kimi hamısı o balacamın üstünə tökülür. Böcəklər, tarakan, nə desəz var».

**SANATORİYALARDAN KÖÇÜRMƏLƏR BAŞLAYIB**

Azərbaycanda qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı həyata keçirilir. Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin mətbuat xidmətinin rəhbəri Elçin Qədimov deyir ki, sanatoriyalarda yaşayanların köçürülməsi işinə artıq başlayıblar: «Bu yaxınlarda Naftalan şəhərindəki sanatoriyalardan köçürmələr olacaq. Naftalanda 165 ailə ilin əvvəlində köçürülmüşdü, bu günlərdə də 525 ailə köçürüləcək. Goran, Şirvan, Azərbaycan, Mil sanatoriyalarından köçürmə olacaq».

Pirşağıdakı məcburi köçkün ailələrinin köçürülmə müjdəsini nə vaxt eşidəcəkləri isə bəlli deyil. Sözügedən 4 mərtəbəli binada təxminən 40 ailə yaşayır. Sanatoriya ərazisindəki bir mərtəbəli, 3-4 otaqlı bir neçə tikili isə 2 saylı Xocalı məktəbi hesab olunur. Məktəbdəki şərait də elə evlərindəki kimidir. Təbii qazı olmayan bu yaşayış yerində işıqlar sönsə, həyat da sönür.


Xocalı məktəbi

***Durna Səfərli***

**"Qaynar Xətt"** dinləyici şikayətləri əsasında hazırlanan verilişdir. Sizin də şikayətiniz və ya məlumatınız varsa, qaynar xəttə zəng edin. **Telefon 436 77 41.** Bizə zəng edənlər mütləq koordinatlarını (ad, familiyasını və telefonunu) saxlamalıdır. **AzadliqRadiosu.az** saytına daxil olmaqla da verilişlə əlaqə saxlaya bilərsiniz.

Aparıcı Esmira Cavadova.

E-mail: esmer_alda@mail.ru



# «Cənab prezident, onda qul bazarı olmamalıydı!»


Natiq Cəfərli

**«Cənab prezident, çıxışınızdakı iqtisadi göstəricilərə görə, bu gün Bakının qul bazarında heç kim olmamalıdır. Bir də 20 milyarddan artıq dövlət büdcəsi olan ölkədə 150 manat təqaüdün adını çəkmək vəziyyətin heç də yaxşı olmadığını göstərir». Bunu AzadlıqRadiosunun saytında Əsəd adlı istifadəçi yazır. Prezidentin yanvarın 16-da Nazirlər Kabinetinin iclasındakı dediklərinə cavab olaraq. İlham Əliyev bildirib ki, ötən il Azərbaycanda 94 min yeni iş yeri açılıb, onun da 73 mini daimidir. Dövlət başçısı bunu da deyib ki, işsizliyin səviyyəsi 2011-ci ildə 5,4 faizə, yoxsulluğun səviyyəsi isə 7,6 faizə düşüb.**

**«QEYDİYYATDAN KEÇƏN İŞÇİLƏRİN SAYI 1,4 MİLYONDUR, AMMA...»**

İqtisadçı Natiq Cəfərli deyir ki, Azərbaycan hakimiyyəti rəqəmlərlə oynamağı sevir: «Bu rəqəmi də götürsək, belə çıxır ki, son 9 ildə 1 milyon iş yeri açılıb. 1 milyon iş yeri olan ölkədə təbii ki, qul bazarı olmamalıdır, işsizlərin sayı az olmalıdır. Əslindəsə real iş yerlərinin yaranmasını yoxlamaq çox asandır. Ölkə qanunvericiliyinə görə, 3 gündən artıq hər hansı yerdə işləyən şəxsə Sosial Müdafiə Fondunda sosial yığım kartı açılmalıdır. Fond məlumatları tam açıqlansaydı, nə qədər iş yerinin açıldığı məlum olardı. Sosial Müdafiə Fondunun rəqəmlərinə görə, qeydiyyatdan keçənlərin sayı təxminən 1,4 milyondur. Amma Azərbaycanda potensial iş qabiliyyətli insanların sayı 4 milyondan yuxarıdır».

N.Cəfərli bu iş yerlərinin açılması mexanizmindən də danışır. Deyir ki, hökumət təmir-tikinti işlərinə cəlb olunanlarla bağlı rəqəmi dəqiq göstərir. Amma layihə bitdikdən sonra nə qədər adamın işsiz qalması haqda məlumat verilmir.

**«NECƏ OLUR Kİ, ALMANİYADA YOXSULLUQ 12 FAİZDİR, BİZDƏ 7,6 FAİZ?»**

Prezident deyir ki, Azərbaycanda yoxsulların sayı da azalıb – 7,6-ya düşüb. Nazirlər Kabinetinin sabiq şöbə müdiri Oqtay Haqverdiyev: «Bizim minimum istehlak səbəti 95 manatdır (bu il 108 manat olacaq), həmin məbləğdən aşağı olandasa, deməli, bu, yoxsuldur. Bu 95 manat bəs edirmi insanın həm ərzaq, həm kommunal xərclərinə, həm ayda bir dəfə kinoya, teatra getməsinə? QHT-lər hesablayıblar ki, həmin səbətin həddi 160 manatdır. Belə baxanda bir adam 150-160 manata dolana bilər. Amma 95 manatla yox. 1 milyon 300 min təqaüdçü var Azərbaycanda. Hesab edək ki, 300 mini oğlunun-qızının hesabına dolanır. Bizim pensiya da nə qədərdir, 140-160 manat alan var. Bunun özü kasıbdır də. Necə olur ki, Almaniyada yoxsulluq 12 faizdir, bizdə 7,6? Biz onun səviyyəsinə çatmışıq? 95 manat götürməsələr, yoxsulluq səviyyəsini 150 manat götürsələr, bu 7,5 faiz olmayacaq, olacaq 15 faiz. Bu, nisbidir. 95 azdır, az götürülər ki, aşağı düşsün, özümüzü aldadırıq».

N.Cəfərli deyir ki, son illər Azərbaycan hökuməti daxili investisiyaların xarici investisiyaları ötdüyünü qabardır. Amma əslində neft-qaz sahəsini çıxmaqla, Azərbaycanda başqa sahələrə investisiya qoymaq istəyən yoxdur. Məsələn, «Barmek», Paulo Pərviz Azərbaycana investisiya qoysalar da, sonunda əmlaklarını itirdilər. Daxili investisiyalara gəlincə, N.Cəfərli deyir ki, əsasən büdcədən, Neft Fondundan yatırımlar edilir, o da infrastruktur layihələrə xərclənir.

***Şahnaz Bəylərqızı***

# Baş Prokurorluq yol polisi əməkdaşlarına qarşı araşdırmaya başlayıb

AzadlıqRadiosunun yaydığı videoda rüşvət aldığı görünən və işdən qovulan Dövlət Yol Polisi əməkdaşları ilə bağlı Baş Prokurorluq tərəfindən araşdırmalara başlanıb. Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov APA-ya açıqlamasında bildirib ki, Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin əməkdaşları – Fəqan Əvəzov, Natiq Məmmədov və Emin Paşayev xidməti vəzifələrinin icrası zamanı yol hərəkəti qaydalarını pozmuş sürücülər barəsində inzibati tədbirlər görmədiklərinə görə daxili işlər nazirinin əmri ilə xidmətdən xaric ediliblər. Eyni zamanda əməllərinə hüquqi qiymət verilməsi üçün onların haqqında toplanmış materiallar Baş Prokurorluğa daxil olub.

# Keçmiş həbsxana rəisi 90 min manat mənimsəməkdə ittiham olunur

Bu barədə APA-ya Salyan Rayon Polis Şöbəsinin istintaq şöbəsinin rəisi Əlibaxış Məmiyev məlumat verib. Şöbə rəisinin sözlərinə görə, Ədliyyə Nazirliyi Penitensiar Xidmətin Salyanda yerləşən 5 saylı Cəzaçəkmə Müəssisəsinin sabiq rəisi, 53 yaşlı Faiq Güləliyev adıçəkilən müəssisənin rəisi vəzifəsində işlədiyi müddətdə 8 vətəndaşı aldadaraq işə düzəltmək adı ilə onlardan 91 min manat alıb. İstintaq digər aldadılmış şəxslərin olub-olmamasını yoxlayır. Cəzaçəkmə Müəssisəsinin sabiq rəisi Faiq Güləliyev Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə ittiham olunur.




Ən aktual, ən qaynar müzakirələr həftənin hər iş günü AzadlıqRadiosunun efirində. **Saat 17-dən 19-dək**. **AzadlıqRadiosu.az** saytından verilişə qulaq asa və ya baxa bilərsiniz. Geciksəniz, AzadlıqRadiosu.az saytında səs arxivindən verilişlərə sonradan da qulaq asa bilərsiniz.

Veriliş zamanı suallarınızı verin:
SMS: (+994 50 744 10 17) Telefon: 436 – 77 - 41
Elektron ünvan: efir@azadliqradiosu.az

# Мы с вами одной свободы




**Многие россияне удивятся, услышав, что один из лозунгов новой русской демократической волны - «Хватит кормить Кавказ!» - в Баку встречают с одобрением. Азербайджан - совсем не та часть Кавказа, что находится на содержании российского бюджета. Более того, государство и частные компании покупают у России за деньги столько же, если не больше, сколько средств переводят в Азербайджан оседающие в России и работающие на её благо трудовые мигранты**

Но не только этот призыв приветствуют в Азербайджане. В первую очередь мы солидарны с борьбой русского народа за политическое освобождение, так как правящие в Азербайджане и России режимы – одного поля ягоды, и их уходу положено созреть в один сезон. Если власть в России деградирует от нынешнего приятельского капитализма к феодальной иерархии - как у нас за последние десять лет, - то это будет означать дальнейшее ухудшение качества власти и у нас тоже.

Аура путинского телевидения до сих пор настраивает демократические силы нашей страны на неприятие российских политических, подчас даже культурных стандартов. И это при том, что пятая часть школьников в Баку ходит в русскоязычные классы – у нас не закрыта ни одна русская школа за 20 лет независимости. Что же произойдёт, если в России власть будет принадлежать народу, а порядок станет производным цивилизованных норм управления? Моральный авторитет России немедленно поднимется на уровень действительно великой державы.

…Солидарность с демократическими силами России логична ещё и потому, что Азербайджан должен торговать с Россией не только оружием в обмен на газ и фрукты. Мы хотели бы торговать с целью взаимного повышения конкурентоспособности передовых отраслей наших экономик. Сейчас Путин дарит опустошившей саму себя Армении горы оружия, чтобы затем продать богатому Азербайджану другую гору. Разве это добавляет России спокойствия на собственных границах и поддерживает её экономические перспективы? Из-за такой политики в нашем регионе ни азербайджанский, ни армянский народы, ни две общины Карабаха не могут сфокусировать усилия на строительстве демократического общества.

В отличие от той же Армении, Азербайджану легко принять сторону демократических сил России. Мы не держим ничьих земель под военной оккупацией при помощи бюджета путинского генералитета. Нам нечего выжидать, гадая, кто победит в российском противостоянии добра и зла, чтобы потом примазаться к успеху. Мы за свободную, демократическую Россию, которая если кого и будет кормить на Кавказе, то только не нас, и только для целей мира, свободной торговли и созидания, а не ради целей, покрытых плесенью истории. Что бы там не говорили иные почитатели Киплинга, мы с вами одной свободы.

***Ильгар Мамедов***

# Крупнейший банк - мафия



**Мафия становится крупнейшим «банком» Италии. Это заявила Группа SOS Impresa в своем отчете. По сообщению Reuters, в отчете группы говорится, что в условиях экономического кризиса мафия стала «национальной скорой помощью» для маленьких компаний.**

### 100 МЛРД. ЕВРО ЧИСТОЙ ПРИБЫЛИ

Согласно отчету, годовой оборот организованной преступности в Италии составляет 140 млрд евро. А чистая годовая прибыль – 100 млрд. евро. В заявлении Группы SOS в связи с отчетом говорится: «Мафия имеет 65 млрд евро наличными. А это делает мафию самым большим банком Италии».

Отчет SOS может показаться некоторым за пределами Италии неожиданным. Но действующий президент Европейского центрального банка Марио Драге в марте прошлого года предупреждал об опасности мафии. Он сказал, что экономический кризис последних 3 лет ослабил компании перед угрозой мафии. Драге – экс-президент Центрального банка Италии, хорошо знает, что говорит.

Такие преступные группы, как сицилийская Коза ностра, неаполитанская Каморра и другие получают прибыли, равные 7% итальянской экономики. Группа SOS создана 10 лет назад в Палермо во время борьбы мелкого бизнеса против рэкета.

### 200 000 ДОЛЖНИКОВ

Мафия широко использует и современные экономические методы, вроде кредитования, наряду с торговлей оружием, людьми, азартными играми и рэкетом, говорится в отчете SOS. По подсчетам, количество бизнес-структур, попавших в трудное положение и одалживающихся у мафии достигло 200 000 под грабительские проценты. В отчете говорится: «Место классических гангстеров заняли внешне респектабельные банкиры, нотариусы и адвокаты. Они прекрасно знают механизмы работы легального кредитного рынка. Они очень хорошо осведомлены о финансовом положении своих жертв».

В отчете говорится, что попавший в трудное положение мелкий бизнес не может получить кредит у банков и вынужден обращаться к мафии.

***Эльхан Насибли***

# Azərbaycan yenə «qeyri-azad» ölkələr siyahısında

**Amerikada yerləşən və dünyada demokratik dəyərlərin bərqərar olunması üçün çalışan "Freedom House" qeyri-hökumət təşkilatı yenidən Azərbaycanı "azad olmayan" ölkələr siyahısına salıb. Təşkilat 2011-ci ildə dünya ölkələrində siyasi hüquqlar və mülki azadlıqların vəziyyəti ilə bağlı hazırladığı hesabatı açıqlayıb. Hesabatda Azərbaycanda siyasi hüquqlar "6", mülki azadlıqlar isə "5" balla qiymətləndirilir. Qeyd edək ki, təşkilat dünya ölkələrini 7 ballıq şkala ilə qiymətləndirib (ən yaxşı ölkəyə "1", ən pis ölkəyə isə 7 bal verməklə).**


Keçən il martın 12-də Bakıda keçirilən etiraz aksiyasında fəallardan biri saxlanarkən

."Freedom House" təşkilatının araşdırmalar üzrə vitse-prezidenti Arch Puddington AzadlıqRadiosuna deyib ki, hesabat dünyada demokratiya ilə bağlı çoxlu problemin qaldığını göstərir. Arch Puddington hesab edir ki, bu dedikləri xüsusilə Azərbaycan və Qazaxıstana münasibətdə doğrudur. Təşkilatın hesabatında bu iki ölkədə insan haqlarının vəziyyətinin daha da pisləşdiyi bildirilir. Hesabata görə, Azərbaycan prezidenti nümayişləri dağıtmaq üçün zordan istifadə edib, müxalifət fəallarını həbs edib, beynəlxalq medianı neytrallaşdırmağa çalışıb və böyük tikinti layihələrinin tərkib hissəsi kimi vətəndaşları öz evlərindən çıxarmaq üçün hakimiyyətdən sui-istifadə edib.

Arch Puddington deyib: "Enerji daşıyıcılarının gətirdiyi zənginliyə görə Əliyev öz qurduğu sistemdən arxayındır və özünə çox güvənir. O nə öz avtoritar idarəçiliyinə görə peşmançılıq keçirmək düşüncəsindədir, nə də islahat aparmağa meyillidir".

"Freedom House" təşkilatının hesabatında Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə də "qeyri-azad" qiyməti verilib, ballar da eynilə - ümumilikdə Azərbaycana verilən ballar kimidir. Təşkilat dünya ölkələrində demokratiyanın vəziyyəti ilə bağlı qeyd edir ki, 2011-ci ildə ərəb ölkələrindəki inqilablar başqa repressiv rejimlərdə yaşayanları da ruhlandırıb. Puddington 2011-ci ili optimizmə əsas verən il sayır. O, hesab edir ki, artıq dünyada demokratiyaya münasibət dəyişməkdədir, insanlar diktatura və avtoritar rejimlərdə yaşamaq istəmədiklərini daha tez-tez ifadə edirlər.

Azərbaycandan fərqli olaraq təşkilatın hesabatında Ermənistan və Gürcüstan "qismən azad" ölkələr kimi göstərilib. Amma eyni kateqoriyada göstərilsələr də, Gürcüstanda siyasi haqq və mülki azadlıqların vəziyyətinin Ermənistandan xeyli yaxşı olduğu qeyd edilir. Azərbaycan hökuməti bir qayda olaraq "Freedom House" təşkilatının hesabatlarını birtərəfli və qərəzli adlandırır.

# Bakıda iki dövlət qurumunun işçiləri dalaşdı


Nəqliyyat Nazirliyinin AzadlıqRadiosunun əməkdaşına təzyiq göstərən əməkdaşı

**Bakı Şəhər İcra Hakimiyyəti ilə «Azəryolservis» ASC-nin Yolların Mühafizə Xidmətinin əməkdaşları arasında qarşıdurma yaranıb. Bu, yanvarın 17-də Füzuli meydanında – tikintisi aparılan «Qış bulvarı»nda baş verib. Özlərini Yolların Mühafizə Xidmətinin əməkdaşları kimi təqdim edənlər AzadlıqRadiosunun hadisə yerində olan əməkdaşının çəkiliş aparmasına mane olublar. Jurnalistin kamerasını əlindən alıblar. Kamera yaddaş kartı götürüldükdən sonra geri qaytarılıb. Yasamal rayon 27-ci polis bölməsinə müraciətdən sonra yaddaş kartını geri almaq mümkün olub.**

Nəqliyyat Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Namiq Həsənov AzadlıqRadiosuna deyib ki, qarşıdurmaya iki qurumun işçiləri arasında anlaşılmazlıq səbəb olub: «Nəqliyyat Nazirliyinin balansında olan bütün yolların mühafizə xidməti var. Biz yolları qoruyuruq. Hansı təşkilata məxsus olmasından asılı olmayaraq, yollara ağır yüklə, palçıqlı, çox çirkli çıxan maşınlara qarşı tədbir görülür. Bu da görülən tədbirlərdən biri olub. Həmin ərazidə iş gedir, böyük maşınlarla yük daşınır. Yük daşınanda da yol bərbad hala salınmasın deyə, orada söhbət olub. Sadəcə, işçilər arasında subyektiv anlaşılmazlıq olub. Bu, iki qurumun qarşı-qarşıya qoyulması yox, sadəcə, 1-2 nəfərin subyektiv yanaşmasından irəli gələn bir məsələdir».

Namiq Həsənov bildirib ki, nazirlik həm hadisəni, həm də orada jurnalistə qarşı baş verənləri araşdırır. Hələlik Bakı Şəhər İcra Hakimiyyətinin bu hadisə barədə fikrini öyrənmək mümkün olmayıb.

# Terror ittihamı ilə saxlanan Rasim Əliyevin anası nələri deyir...

### «YALANDIR, BÖHTANDIR»

Yanvarın 19-da MTN məlumat yaydı ki, «əcnəbi vətəndaşlar olan ictimai xadimləri öldürmək məqsədi ilə terror aktı hazırlayan qrup yaxalanıb». Həmin ictimai xadimlərin kimliyi açıqlanmadı. Məlumatda, sadəcə, deyilir ki, terror aktını Azərbaycan vətəndaşları - Rasim Əliyev, Əli Hüseynov və hazırda İranda yaşayan Balaqardaş Dadaşov planlaşdırıblar. Məqsəd Bakıda işləyən əcnəbi vətəndaşların xidməti fəaliyyətinə son qoymaq olub. MTN-ə görə, bundan ötrü dəstə üzvləri odlu silah, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə edərək İrandan Azərbaycana keçiriblər. Nazirliyin məlumatında həm-



çinin deyilir ki, Rasim Əliyev və Əli Hüseynov iradələrindən asılı olmayan səbəbdən planlaşdırdıqları terror aktını başa çatdıra bilmədən yaxalanıblar.

Terrora cəhddə ittiham olunaraq həbs olunmuş Rasim Əliyevin anası Şükufə Əliyeva isə ittihamı yalan adlandırır: «Yalandır, hamısı yalandır, hamısı böhtandır. Elə onlar gələndə, oğlumu tutanda dedim ki, oyundur, torba tikməyə gəlirsiz. Mənim uşaqlarım nə araq içəndilər, nə siqaret çəkən, o ki ola nəşə çəkən, ya da terrorçu. Biz gördük də. Elə bil içkili adam danışar ey, dili dolaşar, sözü deyə bilməz, o cür danışırdı. Heç o danışmırdı. Başqasıydı. Görmürdüz gözü hara baxırdı? Ona oxutdururdular. Yalandır... 12 ildir kürəkənim Balaqardaşa görə, bu işlər başımıza gəlir».

### «QARAJDAN SNAYPER GÜLLƏLƏRİ TAPDILAR»

Şükufə Əliyeva deyir ki, yanvarın 10-da həbs olunan oğluna vəkil tuta bilməyib. Bir neçə vəkilə müraciət ediblər. Amma onlar Rasim Əliyevi müdafiə etməkdən boyun qaçırıblar. Şükufə Əliyeva israrla təkrar edir ki, oğlu günahsızdır, sadəcə, ittihamı boynuna qoyublar. «Oğlunuza işgəncə və ya hər hansı təzyiq göstərilməsi haqda məlumatınız varmı» sualına belə cavab verdi: «Onu görməmişik. Amma 100 faiz bilirik ki, boynuna qoyublar. Düzdür, İrana gedib-gəlmişik. Amma gömrükdən keçmişik. Yoxlayıb buraxıblar... Gəlib evdə bizi tərpənməyə qoymadılar. Özləri yorğan-döşəyin arasından bükülü tiryək çıxartdılar, qarajdan snayper güllələri çıxartdılar. Narkotiklə boyunlarına qoyub apardılar».

### «YƏHUDİ MƏKTƏBİNİN DİREKTORU VƏ YƏHUDİ KEŞİŞİ ÖLDÜRDƏCƏKMİŞ»

Şükufə Əliyevanın sözlərinə görə, az sonra onları Səbayel Rayon Məhkəməsinə çağırıblar: «Cavan qız idi vəkil, zəng elədi ki, məhkəmə olacaq, gəlin görüşün. Heç yaxın da buraxmadılar. Vəkil gəldi ki, onu da buraxmayıblar. Qərarı göstərdi ki, guya terror aktı törədəcəkmiş, yəhudi məktəbinin direktorunu, yəhudi müəllimini öldürtdürəcəkmiş. Buna görə guya Balaqardaşdan pul da alıb. Adam da tapıb. O da (MTN-in məlumatında adı keçən Əli Hüseynovu nəzərdə tutur- Ş.B.) bədbəxtin, yazığın biridir, qalmağa yeri yoxdur. Tanışdır, heyvan üçün «opilka» gətirir, hərdən də elə-belə 5 manat, 3 manat verirdik. Onu qoyublar üzünə, guya o vuracaqmış. Qarabağ müharibəsinin də iştirakçısıdır o oğlan. Tapıb, düzüb-qoşublar da torba tikməyə».

Anasının dediyinə görə, 34 yaşlı Rasim Əliyevin 2 azyaşlı uşağı var. Biri 2 yaşında, o biri 8 aylıqdır.

### «BÜTÜN OYUNLAR BALAQARDAŞ ÜÇÜNÜYDÜ»

Şükufə Əliyeva kürəkəniylə bağlı deyilənləri də təkzib edir: «Bütün oyunlar onun üçündür əslində. Deyirlər, ayı min bir oyun eylər, bir armud üçün. Balaqardaş kürəkənimi də böhtanla çıxartdılar. Uşaqları bir il məktəbə apara bilmirdik. Düşürdülər dalımızca, gecə-gündüz axtarış-yoxlama. Uşaqları qorxudan sarılıq tutdu.

Axırı qızım başını götürdü getdi.



Bunun boynuna qoyulan cinayətlər vardı, adam öldürmələr-filan, 2004-cü ildə Hacı Məmmədov tutulandan sonra aşkara çıxdı ki, bu eləməyib, Hacı Məmmədovun dəstəsi eləyib. Bununla da polisin ayağı evimizdən kəsildi. Nə biz terrorçuyuq, nə hökumətə qarşı çıxanıq. Allaha şükür, bir parça çörəyimiz var, dolanırıq».

### İRAN SƏFİRLİYİ

Dövlət televiziyasında yayımlanan süjetdə Rasim Əliyev dəfələrlə deyir ki, tapşırığı onlara İranın xüsusi xidmət orqanları verib. Bu işdə vasitəçi də Balaqardaş Dadaşov olub. Yanvarın 20-də iş günü olmadığından İranın Azərbaycandakı səfirliyindən münasibət öyrənə bilmədik.

### AZƏRBAYCAN XİN-i İRANLA DANIŞMALIDIR

MTN-in sabiq əməkdaşı İlham İsmayılın qənaətincə, əgər doğrudan da



İlham İsmayıl

rəsmi məlumatda deyildiyi kimidirsə və terrorun qarşısı alınıbsa, bu, çox yaxşıdır. Amma İlham İsmayıl bu işin qurama olması haqda fikirləri də qəbul etmir. Çünki qarşı tərəf İran dövlətidir və hər hansı dövlət deyil. İlham İsmayıla görə, bu addım görünür hansısa gərgin münasibətlər fonunda cavabdır.

İlham İsmayıl hesab edir ki, Azərbaycan yalnız əməliyyatla kifayətlənməməlidir. Həm də Xarici İşlər Nazirliyi hərəkətə keçməli, İranla danışıqlar aparmalı və ya bəyanat verməlidir.

# Sürücülər cəriməni niyə banka ödəyə bilmirlər?

**«Yanvarın 15-i yol polisi bizə 40 manat cərimə yazdı. Biz bir gün sonra getdik «Bank Standart»a ki, cəriməni tez ödəyib 10 faizlik güzəştdən yararlanaq. Amma bankda bizə dedilər ki, protokol hələ qeydiyyata düşməyib».**

### «ELƏ EDİRLƏR Kİ, BİZ 10 FAİZLİK GÜZƏŞTDƏN İSTİFADƏ EDƏ BİLMƏYƏK»

Sürücü İslam Əliyev deyir ki, onlar 2 gün dalbadal banka gedib cəriməni ödəmək istəyəndə, eyni cavabı eşidiblər: «Bankda dedilər ki, tək siz deyilsiz. Çox sürücü istəyir ki, cəriməni tez ödəyib 10 faiz güzəştdən istifadə etsin. Amma protokol qeydiyyata düşmədiyi üçün bank ödənişi qəbul edə bilmir».

İslam Əliyev ehtimal edir ki, belə hallar çoxdursa, onda bu, məqsədli şəkildə – sürücülərin güzəştlərdən istifadə edə bilməməsi üçün edilir. Yəni onun fikrincə, yol polisi bilə-bilə cərimələri hesaba otuzdurmur ki, sürücülər cəriməni tam, güzəştsiz ödəsinlər.

### BANK PROBLEMİN YOL POLİSİNDƏ OLDUĞUNU DEYİR

«Bank Standart»dan bildirirlər ki, cərimələrin ödənilməsində problemlər onlara yox, yol polisinə aid məsələdir.



Kamran Əliyev

Bankın məlumat mərkəzinin əməkdaşı Günay Ələsgərova deyir ki, yol polisi cərimələrlə bağlı sənədi gec göndərdiyindən onlar ödəmələri vaxtında qəbul edə bilmirlər:

«Biz sistemi açırıq, ora Dövlət Yol Polisinin göndərməli olduğu qaimə - fakturanın nömrəsi gəlməyibsə, ödənişi edə bilmirik. Nömrə gəlməmiş sistem onu göstərmir. Problem yol polisinin gec göndərməyindəndir».

### YOL POLİSİ İRADLARI QƏBUL ETMİR

Amma Baş Dövlət Yol Polisi İdarəsi bankın iradları ilə razılaşmır. İdarənin şöbə rəisi Kamran Əliyev deyir ki, cərimələr haqda məlumatlar 24 saat ərzində mərkəzi informasiya sisteminə ötürülür. Sürücülər cərimə yazılan kimi banka üz tuturlarsa, təbii ki, qısa vaxtda həmin məlumatları bankda tapa bilməyəcəklər:

«Protokol yazıldımı, sürücü səhəri gün gedib cəriməni bankda ödəyə bilər. Problem yoxdur. 3 iş günü ərzində sürücüyə imkan verilir ki, o, cəriməni ödəsin. Burda yol polisinin sürücüyə hansısa maneə yaratmağa elə bir marağı yoxdur ki, o, 10 faiz güzəştdən istifadə edə bilməsin. Bu, düzgün informasiya deyil».

### YOL POLİSİNDƏN SÜRÜCÜLƏRƏ MƏSLƏHƏT

Kamran Əliyev deyir ki, sürücü bankda problemlə üzləşdiyi zaman protokolun nömrəsini Baş Dövlət Yol Polisinə deməklə məsələni aydınlaşdıra bilər.

Şöbə rəisi sürücülərə məsləhət görür ki, vaxt itirib harasa getməmək üçün cərimələri plastik kartlarla yerində ödəsinlər. Bunun üçün sürücülərin yol inspektorlarında olan POS-terminallara kart vasitəsilə ödəniş etməsi kifayətdir.

İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliklərdən sonra 2011-ci il iyulun 1-dən etibarən yol hərəkət qaydaları pozuntusuna görə cərimələrin ödənişi elektron sistemlə həyata keçirilir. Cəriməni vaxtından əvvəl ödəyənlərə 10 faizlik güzəşt nəzərdə tutulub.

***Maarif Çingizoğlu***

# Naxçıvan "cip" maşınların istehsalına başlayıb



Naxçıvanda Lifan taksi

**Naxçıvan Avtomobil Zavodunda (NAZ) yeni avtomobillərin – «Lifan SUV» modelinin istehsalına başlanıb. Zavodun direktoru Musa Allahverdiyev «APA-ECONOMICS»ə deyib ki, «Lifan SUV» krossoverlərinin 1,8 litr həcmli 133 at gücündə mühərriki var və 100 kilometrə 8 litr yanacaq işlədir. Zavod direktoru krossover üçün mühərrikin həcminin kiçik olmadığını bildirib. Onun sözlərinə görə, avtomobilin gövdəsi yüngül olduğuna görə, bu həcmdə mühərrik kifayət edir. Avtomobilin sürəti saatda 170 kilometrə çatır.**

Yeni avtomobillər «Avro-3» standartlarına cavab verir, bu ilin sonunadək isə onların "Avro-4" standartlarına keçməsi planlaşdırılır. «Lifan SUV» krossoverlərinin qiyməti 13-14 min manat arasındadır və 2 illik kreditlə almaq mümkündür. Paralel olaraq müəssisədə indiyədək buraxılan «Lifan 320» və «Lifan 620» avtomobillərinin avtomat sürətlər qutusu ilə istehsalına başlanacaq. Avtomat sürətlər qutulu avtomobil təqribən 800-1000 manat baha olacaq. Musa Allahverdiyevin sözlərinə görə, bu il zavodda ümumilikdə təqribən 1000 avtomobilin buraxılması planlaşdırılır, lakin tələbat böyük olsa, istehsal həcmi arta bilər: «Zavodun istehsal gücü normal rejimdə ildə 5 minədək, ikinövbəli rejimdə isə 10 min avtomobilin buraxılmasına imkan verir».

Hazırda zavod rəhbərliyi NAZ-da buraxılan avtomobillərin xarici ölkələrə – Türkiyə və Qazaxıstana ixracı ilə bağlı danışıqlar aparır.




**Dəyərli oxucular!** AzadlıqRadiosunun korrupsiya halları ilə bağlı maraqlı araşdırmalarını, xəbər və reportajlarını **AzadliqRadiosu.az** saytında **"Korrupsiometr"** bölümündə oxuyun. Səs yazılarını dinləyin, videolara baxın.

## Sizin Vəkiliniz

Korrupsiya və rüşvət mövzusunda istənilən suallarınızı bizə yazın. Suallarınıza Media Hüquqları İnstitutunun əməkdaşı, hüquqşünas Fariz Namazlı cavab verəcək.

Bunun üçün AzadliqRadiosu.az saytının "Korrupsiometr" bölümünə daxil olun.

# Rəsul Quliyevin Avropaya səfəri nə məqsəd daşıyır?



**Azərbaycan parlamentinin keçmiş spikeri Rəsul Quliyev Almaniyada səfərdədir. 2013-cü ilin prezident seçkisinin azad və ədalətli keçirilməsinə dəstək üçün Avropa turnesinə çıxdığını deyən keçmiş spiker AzadlıqRadiosunun da suallarına cavab verib.**

- Dünəndən parlamentdə və Xarici İşlər Nazirliyində görüşlərə başlamışam. Xarici İşlər Nazirliyində Qafqaz və Orta Asiya üzrə idarənin rəhbəri və onun müavini ilə görüşmüşəm. Bundestaqda da deputatlarla görüşmüşəm. Bu görüşlər davam edəcək. Niyə Almaniya? Biz qəbul etməliyik ki, Almaniya kontinental Avropada superdövlətdir. Təbii ki, əsas görüşlər Almaniyadan başlamalı idi. Almaniya parlamenti və hökumətinin Azərbaycanda demokratik proseslərə dəstəyini almağın əhəmiyyəti çox böyükdür.

**- Zəhmət olmasa, bir az konkret deyin, nəyə, hansı formada kimdən dəstək almaq istəyirsiniz?**

- Azərbaycandakı problemlərin həllinin yeganə yolu demokratik seçkilərdən keçir. Hazırda Azərbaycanın böyük problemləri həm ərazi ilə, həm də korrupsiya və rüşvətlə bağlıdır. Faktiki olaraq, Azərbaycan müstəqilliyini alan dövrdə hüquqi dövlət yaratmağa indikindən daha yaxın idi. Ölkədə 8 dəfə - 4 dəfə prezident, 4 dəfə də parlament seçkisi keçirilib. Hər dəfə də beynəlxalq təşkilatlar bu seçkilərin saxtalaşdırılması barədə məlumatlar yayıblar. Saxtalaşdırma arta-arta davam edib. Belə saxta seçkilər, Azərbaycanda demokratiyanın olmaması ölkənin üzləşdiyi problemlərinin də həllinə imkan vermir.

Mənim Avropadan istəyim odur ki, Azərbaycan hökumətinə təsirləri bu dəfə daha güclü olsun. Yəni başa salsınlar ki, bu dəfə də demokratik seçki keçirməsə, Azərbaycan Avropa Şurasından da azad oluna, hökumət açıq şəkildə qeyri-legitim də elan edilə bilər. Yəni Azərbaycan hökuməti qarşısında gərək şərt qoyula. Ümid edirəm ki, 2012-ci ilin sonlarına qədər həm Avropa Şurasının, həm də Avropa Parlamentinin bu məsələlərlə bağlı konkret qərarlar qəbul etmələrinə nail olacağıq. Almaniya deputatları həmin problemi həm Avropa Şurasında, həm də Avropa Parlamentində qaldıracaqlar. Sözsüz ki, mən Avropanın xarici siyasətinin açarı əlində olan başqa ölkələrə - İngiltərəyə, Belçikaya, Skandinaviya ölkələrinə də səfər edəcəm. Bu dəfə biz qəti şəkildə yol verə bilmərik ki, seçki saxtalaşdırılsın. Bu dəfə də seçkinin saxtalaşdırılması Azərbaycan Respublikasını çox böyük təhlükələr qarşısında qoyacaq.

Çox gözəl başa düşürəm ki, Azərbaycanın özünün daxilindən hər hansı etiraz, müqavimət olmasa, kənardan heç bir qərar, heç bir ölkə, beynəlxalq təşkilat vasitəsilə Azərbaycanda köklü dəyişikliyə nail olmaq mümkün deyil. Ona görə də, sözsüz ki, mən əsasən Azərbaycanın daxilində işləri qurmalıyam.

**- Rəsul bəy, Sizin haqqınızda Azərbaycanda cinayət işi var. İnterpolun xətti ilə də axtarışdasınız. Bəs, bu problemlər Sizin xarici ölkələrə səfərlərinizə mane olmurmu?**

- (Gülür) Mən başa düşə bilmirəm... Korrupsiya və rüşvətin içində olan, milyardları oğurlayan bu Azərbaycan hökumətinin İnterpola verdiyi kağız əsasında, doğrudan siz fikirləşirsiz ki, məsələn, Avropadakı sivil demokratik dövlətlər bir addım atar, həmin sənədi ciddi qəbul edərlər? Bu, mümkün olan şey deyil...

**- Hər halda, İnterpol beynəlxalq təşkilatdır...**

- Bilirsiz, bəli, İnterpol beynəlxalq təşkilatdır. Amma onun sənədlərinin istifadə edilib-edilməməsi hər dövlətin öz daxili işidir. Mən ABŞ-da siyasi sığınacaq verilmiş bir şəxsəm. 1951-ci ildən BMT qərar qəbul edib ki, siyasi sığınacaq alan şəxslərin hüquqları toxunulmazdır.

**- Bəs, Azərbaycana qayıtmağı nə vaxta planlaşdırırsız? Çünki, yəqin Sizə də tanışdır, tənqidçiləriniz deyir ki, Rəsul Quliyev Bakıya dönmək şansını hələ 2005-ci ildən itirib.**

- Hətta 2010-cu ilin axırlarına yaxın da bir çoxları deyirdi ki, Rəsul Quliyev siyasi meyitdir. Ümumiyyətlə, Azərbaycanda bu sözü sevirlər. Vaxtilə Heydər Əliyev barədə də deyirdilər ki, siyasi meyitdir. Azərbaycandır də, deyirlər qurtardı, siyasi meyit oldu. İndi görək də. Mən bu barədə konkret bir söz deyə bilmərəm. Ancaq bu o demək deyil ki, Azərbaycana qayıtmaq qeyri-mümkündür. Müəyyən şərtlər daxilində bu, çox realdır.

**- Yəni şərtiniz nədir?**

- O şərtləri sizə açıqlamaq niyyətim yoxdur.

**- Bizim dinləyicilərə heç olmasa, təxmini bir zaman deyə bilərsizmi? Məsələn, qarşıdakı prezident seçkisi ərəfəsi, filan...**

- Mən Azərbaycanda qarşıdan gələn prezident seçkisində iştirak etmək niyyətindəyəm. İştirak etmək və azad şəkildə keçirilən seçkini udmaq niyyətindəyəm.

**- Yəni artıq Sizinlə prezidentliyə namizədliyini verməyə hazırlaşan bir siyasi lider kimi danışmalıyıq, eləmi?**

**Müsahibənin davamını AzadliqRadiosu.az saytında oxuya bilər və yaxud dinləyə bilərsiniz.**

***Natiq Zeynalov***




Günün ən vacib hadisələri **AzadlıqRadiosunun** müxbirlərinin reportajlarında.
Aktual müsahibələr və ekspertlərin analizləri.
Hər gün **saat 20.05-dən 20.35-dək**

# Nazir: Azərbaycana haker hücumu İran və Niderlanddan həyata keçirilib


Əli Abbasov

**Azərbaycanın dövlət və ictimai saytlarına haker hücumu İran və Niderlanddan həyata keçirilib. Bu barədə jurnalistlərə Rabitə və İnformasiya Texnologiyaları naziri Əli Abbasov deyib. Ə.Abbasov yanvarın 16-da baş verən kibermüdaxilələrin nəticələrinin iki saat ərzində aradan qaldırıldığını bildirib: «Bu istiqamətdə araşdırmalarımız başa çatıb. Məlum olub ki, kibermüdaxilələr Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə Xüsusi Dövlət Mühafizə Xidmətinin serverində yerləşən saytlara olub. Müdaxilələrin 24-ü İrandan, 1-i isə Niderlanddan olub».**

Nazir hadisə ilə əlaqədar iranlı həmkarına məktub göndərdiyini vurğulayıb: «İranın rabitə nazirindən xahiş etmişəm ki, kibermüdaxilələrin olunduğu dəqiq ünvanlar müəyyənləşsin. Adətən kibermüdaxilələrin gəldiyi ölkələr tranzit ölkə olaraq seçilir. İnanıram ki, bu qanunsuz haker fəaliyyətinin İran hökumətinə, İranın heç bir dövlət strukturuna aidiyyəti yoxdur».

Ə.Abbasovun fikrincə, mövcud hadisə bir növ siqnal xarakteri daşıyır. «Qərara gəlmişik ki, bu sahədə kompleks tədbirlər həyata keçirək. Bura normativ-hüquqi sənədlərin hazırlanması, texniki və təşkilati tədbirlərin həyata keçirilməsi aiddir. Ola bilsin ki, bundan sonra dövlət saytları yaradılarkən xüsusi sertifikatlar tətbiq olunsun», - deyə nazir bildirib.

# «Teraktor Sazi»nin Bakıda azarkeş klubu yaradılıb

Təbriz şəhərinin futbol klubu olan və İran çempionatında oynayan «Teraktor Sazi» klubunun Bakıda azarkeş klubu yaradılıb. Fan klubun mətbuat xidmətindən Ann.az-a verilən məlumata görə, fan klubun əsas məqsədi «Teraktor Sazi»nin oyunlarının Bakıda yayımını təşkil etmək, kluba azarkeş dəstəyi göstərmək və onu Azərbaycanda tanıtmaqdır. Fan klub ilk iş olaraq klubun şərflərini hazırlayıb. Üzərində Təbriz, Azərbaycan, «Traxtor» yazılan şərflər həm fan klubunun üzvləri üçün, həm də satış məqsədi ilə çap edilib. Yaxın vaxtlarda fan klubun təqdimatı üçün Bakıda geniş təqdimat keçiriləcək.

# Çılpaq şəkillərinə görə iranlı aktrisanı ölkəsinə buraxmırlar

*Parisdə yaşayan iranlı aktrisa Golshifteh Farahani Fransada çəkdirdiyi çılpaq şəkillərə görə ölkəsinə geri qayıda bilmir. Onun "Madame Le Figaro" jurnalı üçün çəkdirdiyi çılpaq fotoları həmçinin facebook səhifəsində yayılıb. Keçən il Fransaya səfər edən Golshifteh Farahani bildirir ki, indi ona İranın Mədəniyyət və İslam Qaydaları Nazirliyindən deyiblər ki, artıq sənin aktrisa kimi xidmətlərinə İranın ehtiyacı yoxdur. Hara istəsən gedə bilərsən.*


Golshifteh Farahani

YouTube portalında yayılan başqa bir videoda isə Golshifteh Farahani bir neçə başqa sənət adamı ilə birlikdə sinəsi açıq şəkildə görünür. Onun bu foto və videoları sosial şəbəkələrlə sürətlə İranda yayılıb. Buna görə İranda fərdin azadlığı, qadın hüquqları kimi mövzularda qəzəbli polemikalar aparılıb. Çünki İranda qadınların geyimlərinə qarşı olduqca sərt dini qaydalar tətbiq edilir.


Rüstəm İbrahimbəyov

# Ziyalılar Forumu Çikaqoya şikayət göndərəcək

*Azərbaycan Ziyalılar Forumunun qurucularından olan yazıçı, kino xadimi Rüstəm İbrahimbəyov yanvarın 19-da "Media forum" saytına danışıb. O, "Hyatt Regency" hotelinin rəhbərliyindən cavab almadıqlarını bildirib: "Hotel rəhbərliyi ötən il dekabrın 29-da yaranmış problemə hələ də rəsmi aydınlıq gətirməyib. Eləcə də növbəti tədbirimizi bu hoteldə keçirməyin mümkün olub-olmaması məsələsi açıq qalır. Hoteldən cavab gəlməyib. Əgər bu bir həftə ərzində də hotel rəhbərliyindən lazımi cavab almasaq, şəbəkənin baş ofisinə şikayət məktubu göndərəcəyik".*

2011-ci il dekabrın 29-da "Hyatt Regency" hotelinin "Bakı" zalında yığıncaq keçirmək istəyən Ziyalılar Forumu problemlə üzləşib. İşıqlar sönüb və hotel rəhbərliyi bunu binanın elektrik sistemində baş vermiş qəza ilə izah edib. Təşkilatçılar isə baş verənləri hakimiyyətin toplantıya mane olması kimi qiymətləndiriblər.

Rüstəm İbrahimbəyovun sözlərinə görə, forumun növbəti toplantısı yanvarın axırında olacaq: "Amma mövzu və yer dəqiqləşməyib. Gərək forumun digər üzvləri ilə də bu haqda məsləhətləşmələr aparaq. Bundan sonra ictimaiyyətə dəqiq bir şey söyləmək olar".

Azərbaycan Ziyalılar Forumu 2009-cu ildə yaradılıb. Qurumun missiyası ölkədə ictimai rəyin formalaşması və qərar qəbul etmə prosesinə təsiri artırmaq üçün ziyalıları toparlamaq, ölkənin sabit və davamlı inkişafı üçün zəruri olan mütərəqqi islahatların hazırlanıb həyata keçirilməsində vətəndaş cəmiyyətinin rolunu artırmaqdır.

"Hyatt Regency" - Hyatt beynəlxalq otellər şəbəkəsinə aiddir. Şəbəkənin mərkəzi ofisi ABŞ-da - Çikaqonun mərkəzindəki 48 mərtəbəlik göydələndə (Downtown Chicago 71 South Wacker Drive) yerləşir.

# Rafiq Tağının qətli ilə bağlı təhqiqatın nəticəsi açıqlandı



Eynulla Fətullayev və Mehman Əliyev

**Rafiq Tağının qətli ilə bağlı yaradılmış Preventiv Təhqiqat Qrupu yanvarın 21-də ilkin hesabatını açıqlayıb. Qrup bıçaqlanma yerindən tutmuş, yazıçı-publisist Rafiq Tağının iş yeri, təcili tibbi yardım xəstəxanası və onun əməliyyat olunduğu xəstəxanaya qədər bir sıra yerlərdə araşdırmalar aparıb.**

Qrupun rəhbəri jurnalist Eynulla Fətullayev Rafiq Tağının qətlinin daha çox İranla bağlanmasını ictimai fikrin yayındırılması kimi qiymətləndirib. Bununla belə, o, hələ ki, özlərinin konkret bir nəticəyə gəlmədiklərini deyib. Amma o bildirib ki, təcili yardımın 1 saat gecikməsi, Rafiq Tağının ağır əməliyyatdan 25 saat sonra palataya köçürülməsi və ölümünün səbəbləri ilə bağlı ekspertiza rəyindəki qeyri-müəyyənlik xeyli suallar yaradır.

**«O ÖZÜ VƏFAT ETDİ, YOXSA ONA KİMSƏ «KÖMƏK» ETDİ?»**

Qrupun üzvü, «Turan» İnformasiya Agentliyinin direktoru Mehman Əliyev isə deyir ki, onların araşdırmalarına görə, kimlərsə Rafiq Tağının ölümünün tezləşməsində maraqlı olub: «Ağır cərrahiyyə əməliyyatından qısa müddət sonra Rafiq Tağının palataya köçürülməsi səhv addım olub. Rafiq Tağı xəstəxanada vəfat etməməli idi. İndi bunu araşdırmaq lazımdır – o özü vəfat etdi, yoxsa ona kimsə «kömək» etdi?».

Eynulla Fətullayev bir məsələyə də diqqət çəkir. O deyir ki, Rafiq Tağının ölümündən sonra vaxtilə onunla birlikdə həbs edilən «Sənət» qəzetinin baş redaktoru Samir Sədaqətoğlunun ölkəni tərk etməsinə şərait yaradılması halları olub. Onun fikrincə, kimlərsə baş redaktoru ölkədən çıxarmaqla bu məsələdə İran faktorunu daha da gücləndirməyə cəhd göstərib: «Samir Sədaqətoğlu bununla bağlı qrupa müraciət ünvanladı ki, mən Azərbaycanı tərk etməyəcəm. Bizdə olan məlumatlara görə, hətta Samir Sədaqətoğlunun Fransaya göndərilməsi ilə bağlı səfirliyə bəzi emissarlar müraciət də ediblər».

Qrup hesab edir ki, Rafiq Tağı işdən çıxıb evə gələn ərəfədəki mobil telefon zəngləri, onların hərəkət trayektoriyası mobil operatorlardan alınıb cinayət işinə əlavə edilməlidir. Eynulla Fətullayev deyir ki, üstəlik, Rafiq Tağının iş yerində olan kameraların da yaddaşı araşdırılmalıdır.

Qrupun hesabatını dinləyən Rafiq Tağının qardaşı İlqar Tağıyevsə özü bir neçə ehtimal dilə gətirdi:

**«BU, RAFİQ TAĞININ PEŞƏ FƏALİYYƏTİ İLƏ DƏ BAĞLI OLA BİLƏR»**

«Sifariş İrandan olmasa da, mən burda islam faktorunun inkar edilməsinin əleyhinəyəm. Amma mən burda bir faktor da görürəm. Ola bilər, kimsə bunu qisas məqsədi ilə də etsin. Misal üçün, bu, Rafiq Tağının peşə fəaliyyəti ilə də bağlı ola bilər. Ölümündən bir-iki həftə əvvəl o, işlədiyi təcili yardımdan xəstəxanaya ağır vəziyyətdə bir adam gətiribmiş. Onda xəstəxana onu götürmək istəməyib və həkimlə mübahisələri düşüb. Bu, ehtimallardır, səsləndirirəm. Bundan başqa, Rafiq Tağı bir dəfə öz müsahibəsində deyib ki, mən «ədəbiyyat mafiyasının» ayağını tapdamışam».

**«MƏN DAHA ÇOX RAFİQ TAĞININ ÖLÜMÜNÜ İSLAM FAKTORU İLƏ ƏLAQƏLƏNDİRİRƏM»**

İctimai təhqiqat qrupunun hesabatına gəldikdə, İlqar Tağıyev deyir ki, qrupun İran məsələsini bu işdə tamamilə kənara qoyması onu qane etmir: «Mən daha çox Rafiq Tağının ölümünü islam faktoru ilə əlaqələndirirəm. Çünki ölümündən bir qədər əvvəl onun «İran və qloballaşma qaçılmazlığı» yazısı olmuşdu. Elə bundan bir az sonra belə bir hadisə baş verdi».

Noyabrın 19-u saat 22.00 radələrində işdən evə qayıdan Rafiq Tağıya yaşadığı binanın yaxınlığında naməlum şəxs çoxsaylı bıçaq xəsarətləri yetirib. 4 gün Klinik Tibbi Mərkəzdə müalicə olunan yazıçı noyabrın 23-də xəstəxanada vəfat edib. Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

İstintaq davam edir, saxlanan yoxdur.

***Maarif Çingizoğlu***



İlqar Cahangirov

# Aktyor Ilqar Cahangirov: "Teatrda hansı otağı açırsan, Əliyevin şəklidir"

**Gənc Tamaşaçılar Teatrının aktyoru "Pen klub" da sərt danışdı: "Teatra 90 nəfər yığıblar, bu, zavod-fabrik deyil, 10 il rol almayan var"**

**İlqar Cahangirov:** "Asılıyıq. Dövlət bizi asılı edib. Teatrda hansı otağı açırsan, İlham Əliyevin, Heydər Əliyevin şəklidir. Bura teatrdır da. Elə otaq var ki, orda İlham Əliyevlə Heydər Əliyevin 5-6 şəklini asıblar. Mən onlarla nədən danışım?"

**Zöhrə Əliyeva:** "Dövlətin teatrlara qayğısının olmadığını deyən adamdan mən bilmirəm nə gözləyim. İkincisi, adlar verilir, prezident təqaüdləri verilir, evlər verilir, nə bilim, hər şey verilir".

**"Pen-klub"** verilişində bu dəfə qonaqlarımız Gənc Tamaşaçılar Teatrının aktyoru İlqar Cahangirov, jurnalist Ramilə Qurbanlı, Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidmətinin rəhbəri Zöhrə Əliyevadır. Gənc Tamaşaçılar Teatrının baş rejissoru Cənnət Səlimova son anda verilişə qatılmaqdan imtina edib.

**Bu verilişin tam videoyazısına AzadliqRadiosu.az saytında baxa bilərsiniz.**

## "Oxu zalı"nda:

Məşhur yazarlar TV haqda:

**"İnsanlarla debil kimi davranırlar"**

# "İtaliya Titaniki"nin kapitanı qəzadan əvvəl Moldova gözəli ilə əylənirmiş?



**İtaliya polisi Moldovadan olan 25 yaşlı Domnica Cemortanı axtarır. Polisin məlumatına görə, o, azı 11 nəfərin həlak olduğu Costa Concordia gəmisinin yanvarın 13-də sualtı qayalara ilişməsindən az əvvəl kapitanla şərab içirmiş. Deyilənə görə, 52 yaşlı kapitan qəzadan əvvəl onunla bir romantik gecə keçiribmiş. Rumıniya qəzetləri artıq onu "İtaliya Titanikində moldovalı su pərisi" adlandırırlar.**

Qəzadan dərhal sonra gəmidəki 4200 nəfəri taleyin ümidinə buraxaraq birinci canını götürüb qaçmaqda ittiham olunan kapitan Francesco Schettino onsuz da qəzəb obyekti idi. İndi məlum olur ki, hələ əlavə bir kef söhbəti də varmış. Amma Cemortan özü Moldovaya qayıdandan sonra yerli jurnalistlərə qısa müsahibəsində öz hərəkətində pis bir şey olmadığını deyib.

Moldovanın Jurnal TV kanalına müsahibəsində o deyib ki, kapitanın gəmini hamıdan tez tərk etməsi barədə məlumatlar yalandır:

- Mən Rusiya mediasından eşitdim ki, kapitan hamıdan tez tərk edib, yaxud ən tez tərk edənlərdən olub. Amma bu, yalandır. Mən şahidəm. Bilmirəm, mənim istintaqa çağıracaqlar, yoxsa, yox. Amma bir şahid kimi mən deyə bilərəm ki, mən kapitanın əmrindən sonra saat 23:50-də gəmini tərk etmişəm.

Qəzada azı 11 nəfər həlak olub, hələ xeyli sayda adam da itkin hesab edilir. Gəmi kapitanı Schettino hələlik ev dustağı kimi saxlanır. Özü təlim keçmiş balerina olan Domnica Cemortanı beş il həmin gəmidə xidmətçi kimi işləyib. Amma bu dəfə gəmiyə istirahətə gedən sərnişin kimi minibmiş.

Amma 580 milyon dollar dəyəri olan bu gəminin sahibləri kapitanın qəzadan az əvvəl içki içməsi barədə iddiaları inkar edirlər. Onlar bildirirlər ki, gəminin bütün heyəti tez-tez narkotik maddələr və alkoqol testindən keçirmiş.

İndi həm də Cemortanın gəmidə kapitanın otağına necə gedib çıxdığı araşdırılır. Çünki qeyd edildiyi kimi o, gəmiyə heyət üzvü kimi yox, adi istirahətə gedən sərnişinlərdən biri kimi minibmiş. Cemortan özü deyir ki, qəza vaxtı xilasetmə elanlarının müxtəlif dillərdə, o cümlədən də rus dilində verilməsi üçün onu yardıma çağırıblar. İndi İtaliya polisi də qəza vaxtı kapitanın nə etdiyini daha ətraflı öyrənmək üçün gənc qadınla söhbət etmək istəyir.

# Məscidlər üçün yeni standartlar



İstanbul, Sultan Əhməd məscidi

Türkiyənin Diyanət İşləri Nazirliyi 2012-2016-cı illər üçün strateji bir fəaliyyət planı hazırlayıb. Ciddi layihələrin həyata keçiriləcəyi bu müddətdə Türk Standartları İnstitutu (TSE) ilə birgə əməkdaşlıq ediləcək. Layihə çərçivəsində məscidlərin işində xeyli dəyişiklik ediləcək, ibadət yerləri daha funksional hala gətiriləcək. Hər il 50 camenin TSE standartlarına uyğunlaşdırılması üçün işlər görüləcək.

"Zaman" qəzetinin yazdığına görə, yeni plan çərçivəsində nazirlik İslamı geniş kütlələrə çatdırmaq işinin və din xidmətinin daha keyfiyyətli şəkildə təqdim olunmasına çalışacaq. Məscidlərdə insanlara daha rahat oxuna bilən "Qurani-Kərim"lər paylanılacaq. Həcc və İmre xidmətləri dəyişdiriləcək, Həcclə bağlı qadın dindarların sayı artırılacaq.

### EVDƏ DİN XİDMƏTİ GÖSTƏRİLƏCƏK

Yəni evdə qulluğa ehtiyacı olan yaşlı, xəstə, əlil olan insanlara din xidmətləri təklif ediləcək. Eşitmə problemi olan insanlar üçün də xüsusi xidmətlər hazırlanacaq. Gənclərə yönəlik dini mövzularda əsərlər silsiləsi, uşaqlar üçün isə cizgi filmlər hazırlanacaq. Türk dilindəki önəmli əsərlərin xarici dillərə, əcnəbi dilllərdəki əsərlərin isə türkcəyə çevrilməsi prosesi tezləşdiriləcək. ABŞ-da cami, araşdırma mərkəzi, sosial və mədəni sahələri əhatə edən kültür mərkəzi açılacaq.

### AZAN EYNİ MƏRKƏZDƏN VERİLMƏYƏCƏK

Bundan başqa, azanın bir mərkəzdən verilməsi məhdudlaşdırılacaq. 2016-cı ilin sonuna qədər məscidlərin 50 faizində *azan vaazla*, 30 faizində isə caminin öz işçiləri tərəfindən oxunmağa başlanılacaq. Din xadimləri xütbələrini özləri yazması üçün seminar və kurslara göndəriləcək. Bu müddət ərzində Türkiyədə "Qurani-Kərim" muzeyinin yaradılması da planlaşdırılır.

# Hərbi xidmətdən yayınan Yehova şahidi ŞUŞA həbsxanasında

**Yehova şahidi Karen Harutyunyan hərbi xidmətdən imtina elədiyinə görə, Dağlıq Qarabağdakı separatçı rejim tərəfindən 30 aylıq həbs cəzasına məhkum edilib. FORUM18 təşkilatının xəbərinə görə, Harutunyan məhkəmədən əvvəl artıq Şuşadakı həbsxanaya köçürülüb və cəzasını burada çəkəcək.**

Yehova şahidi dini inancına görə hərbi xidmətdən imtina elədiyini və qərardan apelyasiya verəcəyini bildirir. Ancaq separatçı rejimin Ombudsmanı Yuri Hairapetyan da iddia edir ki, Harutunyanın heç şansı yoxdur, çünki o, qanunu pozub və doğrudan da Yehova şahidi olduğunu heç kim sübut edə bilməz.

Tanınmayan rejimin dini işlər və milli azlıqlar üzrə rəsmisi Ashot Sargsyan isə məhkəmə qərarını "çox yüngül" olduğu üçün "absurd" adlandırır.

# Türkiyəni "Eurovision"da yəhudi müğənni təmsil edəcək



Can Bonomo

**Türkiyənin "Eurovision" təmsilçisi Can Bonomo hazırda medianın diqqət mərkəzindədir. Habertürk müxbirinin ondan aldığı kiçik müsahibəni sizə təqdim edirik.**

- Çiynimdə böyük bir yük var. Amma altından qalxa biləcəyimi düşünməsəydim, təklifi qəbul etməzdim.

*- Vəziyyəti biləndə, ilk dəfə kimə xəbər verdin?*

- Heç kimə. Xəbər ilk dəfə TRT tərəfindən açıqlanacağından heç kimə deməməmizi xahiş etdilər. 2 narahat gün keçirdim. Sürprizdi axı.

*- Karyerana və sənə zərər verməsindən ehtiyatlandıqları üçün "Eurovision"a getməyini istəməyənlər var…*

- Mən 24 yaşında gənc sənətçiyəm. TRT məni seçməkdə böyük cəsarət göstərdi. Bu təklifi qəbul edəcək cəsarəti özümdə tapmasaydım, axmaq olardım. Hələ karyeramın başındayam. 40 yaşlı özünü təsdiq etmiş bir sənətçi olsaydım, qorxa bilərdim. İtirəcək heç nəyim yoxdur.

*- Bir də TRT ilə tapşırıqla anlaşdığını iddia edənlər var…*

- Belə qaralamalar olacaq.

*- Öz tərzi olan, müstəqil olmağı sevən bir musiqiçisən. "Eurovision" isə qaydaları olan, sənətçini buxovlayan bir yarışmadır. Elə TRT də… Bu protokollar, sərhədlər səni depressiyaya salmayacaq ki? Yaradıcılığını məhdudlaşdırmayacaq ki?*

- "Eurovision"la bağlı bu fikirlərə qatılmıram. Əlbəttə, bəzi ölçülərə uymaq lazım gələcək, fəqət TRT öz sənətçisinə kifayət qədər müstəqillik verən bir qurumdur. Əvvəl bir az ehtiyatlanırdım. Amma işin içinə girdikdən sonra düşündüklərimin doğru olmadığını gördüm. Özüm olmağa davam edirəm. Sadəcə, bir az da yorğunam.

*- Musəvi olman bilinəndə bir az üstünə gələnlər oldu. Bununla bağlı demək istədiyin bir şey varmı?*

- Heç kimi maraqlandırmayan sualdır. Heç bir vaxt bu məsələni mən açmıram. Elə bu təbliğatın gündəmə gəlməsinə də səbəb budur. Deməyə utandığım bir açıqlama olmasına baxmayaraq, bir dəfə də açıqlamağa çalışacam. Türkiyədə 36 etnik mənşəli xalq illərdir sülh və əmin-amanlıq içində bir bayraq altında yaşayır. Mən bir Səfarad yəhudisiyəm. Mənim babalarım bu torpaqlara 540 il öncə gəliblər. 2012-ci ildə ölkəmizi, bayrağımızı təmsil edəcəyəm. Nəyə inandığımın bayrağımla, torpağımla, sənətimlə və hər şeydən öncə kimsəylə ilgisi yoxdur. Olmamalıdır da.

*- Media marağını sənin üstündə cəmləyib. Atdığın hər addıma diqqət etmən gərək olacaq…Buna hazırsanmı?*

- Onsuz da gündəlik həyatda çox çılğın addımlar atan adam deyiləm. Normal olmağa davam etdiyim vaxt ərzində media ilə yaxşı anlaşacağımızı düşünürəm.

***Sevda İsmayıllı***

# AzadlıqRadiosunda verilişlər:

| | |
|---|---|
| 8:00 | Qafqaz Qovşağı /Azadlıq Bölgələrdə / Kontekst / Şəffaflıq / Overtime |
| 9:00 | İz / Şəffaflıq / İşdən sonra |
| 10:05 | Qərb musiqisi |
| 11:00 | Xəbərlər |
| 11:05 | Qərb musiqisi |
| 12:00 | Xəbərlər |
| 12:05 | Qafqaz Qovşağı / Qaynar Xətt / Can Bakı / Iz / Şəffaflıq / 14-24 / Şəffaflıq / Azadlıq Bölgələrdə |
| 13:00 | Xəbərlər |
| 13:05 | Qərb musiqisi |
| 14:00 | Xəbərlər |
| 14:05 | Overtime / Kontekst / Qaynar Xətt / Can Bakı / Pen club / Overtime / Iz / Şəffaflıq |
| 15:00 | Xəbərlər |
| 15:05 | Qərb musiqisi / Qaynar Xətt / Can Bakı |
| 15:30 | Amerikanın Səsi / İz |
| 16:00 | Xəbərlər |
| 16:05 | Qərb musiqisi / İşdən sonra |
| 17:00 | Xəbərlər |
| 17:05 | İşdən sonra |
| 18:00 | Xəbərlər |
| 18:05 | İşdən sonra / Pen Klub |
| 19:00 | Qərb musiqisi |
| 20:00 | Xəbərlər |
| 20:05 | Kontekst / Azadlıq Bölgələrdə / Şəffaflıq / Qaynar Xətt / İslam və Demokratiya / 14-24 / İz |
| 20:30 | Amerikanın Səsi / Qafqaz Qovşağı / 14-24 |
| 21:00 | Qərb musiqisi |
| 22:00 | Xəbərlər |
| 22:05 | Kontekst / 14-24 / Şəffaflıq |
| 23:00 | Xəbərlər |
| 23:05 | Overtime / İşdən sonra / AzadlıqFM / Overtime |
| 00:00 - 8:00 | Amerikanın Səsi / Qərb musiqisi |

**Qeyd:** Kəsr xətti ilə verilmiş – eyni saatlara düşən verilişlər həftənin günlərindən asılı olaraq növbə ilə təkrar gedir...

# Simsiz teleqraf

## Zibil maşını



***İnkişafda olan ölkənin zibil maşını… Yüklədi: Anonim***

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**

efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

**necə dinləməli...**

24 saat

**Mobil telefonda canlı:** İndi 3G, GPRS və ya Wi Fi-la radiomuzu canlı dinləmək olur... Ətraflı: **AzadliqRadiosu.az**-da

# AzadlıqRadiosu Facebook-da




**facebook.com/azadliqradiosu**

**Qaynar Xətt:** **436-77-41**

**Bizimlə əlaqə:**

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30

**E-mail:** efir@AzadliqRadiosu.az


Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Qanun" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tbilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: fdjurnal@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz